


# TÜRK DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI

***Azərbaycanın 270 yaşlı mədəniyyət ocağı, muğam-sənət beşiyimiz Şuşa şəhəri 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib.***

Qeyd edilib ki, 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulmuş Şuşa şəhəri Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən olub. Uzun illər Qarabağ xanlığının paytaxtı olan və əsas müdafiə qalası missiyasını yerinə yetirən Şuşa daim mədəniyyətimizin çiçəkləndiyi şəhər kimi tanınıb. 17 məhəllədən ibarət şəhərdə hər məhəllənin öz məscidi, hamamı və bulağı olub. Sənətkarlığın və incəsənətin müxtəlif sahələrinin inkişafı nəinki Azərbaycanın Qarabağ bölgəsinin, bütövlükdə ölkəmizin tərəqqisində mühüm rol oynayıb, şöhrətinə şöhrət qatıb. Şuşa Azərbaycan ədəbiyyat və mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş görkəmli şəxsiyyətlərin yurdudur.

1992-ci ildən 2020-ci ilədək Ermənistanın işğalı altında qalan Şuşa şəhərində tarixi-mədəni abidələr, o cümlədən məscidlər, təhsil müəssisələri, kitabxana və muzeylər dağıdılıb talan edilib. Vurğulanıb ki, 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu Qarabağımızı, o cümlədən Şuşanı düşmən işğalından qurtarıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci il ölkəmizdə "Şuşa İli" elan edilib. Hazırda Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş yaşayış məntəqələrimizdə, həmçinin mədəniyyət paytaxtımız Şuşada genişmiqyaslı bərpa-quruculuq və abadlıq işləri aparılır. Tarixi-mədəni zənginlikləri ilə vaxtilə dünyada şöhrət qazanmış Şuşa şəhəri 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" missiyasını da layiqincə yerinə yetirəcək. Şuşa türk, islam dünyasının mədəniyyət paytaxtı statusu ilə məhdudlaşmayacaq, gələcəkdə bütün dünyanın mədəniyyət paytaxtlarından biri kimi də tanınacaq. Dövlət başçısının da dediyi kimi "Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik".

Azadlığına qovuşan tarixi yurdumuz Şuşa xoşbəxt günlərinə qanad açıb, gündən-günə əzəli şöhrətini bərpa edir. Bu gün biz də özümüzü bəxtəvər nəsil adlandırırıq ki, Şuşanın şanlı günlərinin, neçə illər idi ki, arzusunda idik, fəxarətli şahidliyini edirik. Prezident İlham Əliyev tərəfindən Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. İllərdən sonra Şuşada "Xarıbülbül" musiqi festivalı keçirilib, Vaqifin bərpaolunan əzəmətli mavzoleyinin qarşısında "Vaqif Poeziya Günləri" gerçəkləşdirilib.

2023-cü ildə isə Azərbaycan xalqının mənəvi qibləsi, türk dünyasının qürur mənbəyi olan Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi mədəni irsinin möhtəşəmliyini dünyaya sərgiləyəcək.

Xatırladaq ki, "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əsası 2010-cu ildə türkdilli ölkə başçılarının İstanbul şəhərində keçirilən 10-cu sammitində qoyulub. Qərara əsasən, Türk dünyasından hər il bir şəhər "mədəniyyət paytaxtı" elan edilir.

Bu günə qədər Astana (2012, Qazaxıstan), Əskişəhər (2013, Türkiyə), Kazan (2014, Tatarıstan – Rusiya Federasiyası), Mərv (2015, Türkmənistan), Şəki (2016, Azərbaycan), Türküstan (2017, Qazaxıstan), Kastamonu (2018, Türkiyə), Oş (2019, Qırğızıstan), Xivə (2020, Özbəkistan) və Bursa (2022, Türkiyə) şəhərləri "Türk dünyasının mədəniyyət paytaxtı" olub. Şuşa bu missiyanı yerinə yetirən 11-ci şəhərdir.

Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir.TÜRKSOY-un Baş katibi Düsen Kaseinov bildirib ki, Azərbaycana dahi sənətkarlar, mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərini dirçəltmək, buraya yeni nəfəs gətirmək çox zəruridir: "Azərbaycana o qədər dahi sənətkar bəxş etmiş şəhəri dünyaya tanıtmaq istəyirik. Bu mübarək yurda yeni nəfəs gətirməliyik. Biz təşkilat olaraq bunun üçün əlimizdən gələni edəcəyik".

270 illik tarixə malik, Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilmişdir.

Qeyd edək ki, 2023-cü il Mayın 9-dan 11-dək Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına TÜRKSOY ölkələrinin musiqi və rəqs qrupları, sənət adamları da qatılıb. Festival başa çatsa da, Şuşada Türk dünyası mədəniyyətinin təntənəsi hələ bir çox layihə və mərasimlərlə ilin sonunadək davam edəcək.




## “Şuşa-Türk dünyasının mədəniyyət paytaxtı-2023”ün rəsmi açılış mərasimi

Mayın 12-də Şuşa şəhərində Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə “Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023” ilinin rəsmi açılış mərasimi keçirilib.

“Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilən tədbirdə dövlət rəsmiləri, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-a üzv ölkələrin nümayəndə heyətləri, Türk Əməkdaşlıq Təşkilatlarının rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar “Qarabağ” otelinin qarşısında təşkil olunmuş “Kulinariya və sənətkarlıq” guşəsi ilə tanış olublar.

Mədəniyyət naziri Adil Kərimli çıxışında bildirib ki, bu gün Şuşa və bütün Qarabağ öz intibah dövrünü yaşayır: “Qələbədən qısa müddət keçməsinə baxmayaraq şəhərlərimizin, kəndlərimizin, tarix-mədəniyyət abidələrimizin məhv edilən meşə massivlərinin və bütövlükdə yaşayış infrastrukturunun qısa müddətdə kompleks bərpası və yenidən qurulması istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi ilə intensiv işlər aparılır. Şuşa şəhərinin tarixi-mədəni siması bərpa edilir, Şuşaya yenidən mədəni həyat qayıdır”.

Adil Kərimli qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Şuşada müxtəlif yerli və beynəlxalq mədəni tədbirlər keçirilir, mədəni irsimizin bərpası istiqamətində geniş işlər həyata keçirilir.

Onun sözlərinə görə, oktyabr ayında planlaşdırılan Nazirlərin Daimi Şurası çərçivəsində Şuşada Birinci Türk Dünyası Mədəniyyət Forumunun keçirilməsi nəzərdə tutulur: “Şuşa ötən əsrlərdə mədəniyyətimizdə, klassik musiqimizdə bir sıra yenilikləri ilə tarixə düşdü. Əminəm ki, Şuşada baş tutacaq Birinci Türk Dünyası Mədəniyyət Forumu da XXI əsrin türk əsrinə çevrilməsi üçün mədəni əlaqələrin inkişafında yeni üfüqlər yaradacaq, bizim ən güclü ortaq platformalarımızdan birinə çevriləcək”.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov deyib ki, Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması Türk dünyası tərəfindən bu şəhərə olan böyük ehtiramın ifadəsidir: "Şuşa azərbaycanlılar üçün olduğu kimi, Türk dünyası üçün də böyük əhəmiyyət daşıyır. Bu tədbir də bir daha bunu sübut edir. Şuşamız bundan sonra da möhtəşəm və yaddaqalan neçə-neçə tədbirə ev sahibliyi edəcək.

Tədbirdə çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev deyib ki, bu torpaqlar bizim üçün sənətin, musiqinin beşiyidir. Şuşa Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyli və neçə-neçə söz, sənət xiridarının vətənidir: Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunduğuna görə Zəfərin, rifahın və şənliyin çox yaraşdığı bu şəhərdə bir-birindən zəngin, yaddaqalan və rezonans doğuracaq proqramlarımız olacaq. Şuşa şəhəri 2023-cü il üçün TÜRKSOY Daimi Şurasının qərarı ilə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Nazirlər Kabinetinin Tədbirlər Planına uyğun olaraq Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə fəaliyyət planı hazırlanıb".

Sultan Raev TÜRKSOY-un "Qorqud Ata" Türk dünyası III film festivalının da açılışının Şuşada olacağını bildirib. O, "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ilinin bağlanış mərasiminin isə noyabr ayına planlandığını deyib: "Bağlanış tədbirində 2024-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" estafeti Türkmənistanın Anev şəhərinə veriləcək".

Baş katib əlavə edib ki, Şuşada keçirilməsi nəzərdə tutulan proqram "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi üzrə indiyədək keçirilmiş tədbirlərdən daha yaddaqalan olacaq: "Çünki bu əzəmətli şəhər təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mənəviyyat mərkəzi, qürur yeridir. Fikrimcə, Şuşa Azərbaycanın ürəyidir. Bu il həm də TÜRKSOY-un 30 illiyidir. TÜRKSOY-un yaşı qədər işğal altında qalan, barbarlıqla dağıdılan, hazırda azadlığına qovuşan bu tarixi şəhəri biz fürsətdən istifadə edib həm Türk dünyasına, həm də bütün dünyaya mədəniyyətin, incəsənətin, musiqinin beşiyi kimi tanıtmaq niyyətindəyik".

Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması münasibətilə bütün iştirakçıları təbrik edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev bildirib ki, son illər həyata keçirilən müstəqil, ardıcıl və qətiyyətli siyasət nəticəsində Azərbaycan Respublikası dünya ölkələri arasında nüfuzunu daha da möhkəmlənib və regionun aparıcı dövlətlərindən birinə çevrilib.

Xüsusilə vurğulayıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsi nəinki Azərbaycan,

bütövlükdə Türk dövlətləri və xalqları üçün qürur mənbəyinə çevrilib, eyni zamanda, Türk birliyinin daha da güclənməsinə təkan verib.

O, "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşada bir-birindən maraqlı tədbirlərin keçiriləcəyinə əminliyini ifadə edib və bütün türkdilli xalların yaradıcı simalarını bu tədbirlərdə yaxından iştiraka çağırıb.

Şuşanın Azərbaycanın tacı olduğunu söyləyən Xalq artisti Polad Bülbüloğlu qala-şəhəri həm də Azərbaycanın nəğmə deyən ürəyi adlandırıb. Bu günlərdə Şuşada təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının əhəmiyyətindən danışan Xalq artisti deyib ki, bu musiqi bayramı qardaş türk xalqlarını bir araya gətirib, onları bir-birinə daha da yaxınlaşdırıb.

Ötən 30 ildə TÜRKSOY-un keçdiyi tarixi yola nəzər salan Polad Bülbüloğlu Ulu Öndər Heydər Əliyevin bu təşkilatın inkişafına verdiyi dəstəyi xüsusi qeyd edib. TÜRKSOY-un türk xalqlarının mədəni irsinin yaşadılması və təbliği istiqamətində gördüyü işləri yüksək qiymətləndirən Azərbaycanın Xalq artisti "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023" ilinin açılış münasibətilə hər kəsi təbrik edib.

Tədbirdə TÜRKSOY-un Baş katibi Sultan Raev Adil Kərimliyə, Aydın Kərimova, Polad Bülbüloğluna və Kubanıçbek Ömüralıyevə təşkilat adından xatirə hədiyyələri təqdim edib.

Azərbaycan Yazıçılar Birliyinin sərdi, Xalq yazıçısı Anar deyib ki, bu gün çox şadıq ki, azad olunmuş Şuşada qardaş türk xalqlarının nümayəndələri iştirak edirlər. Türk xalalarının yaxınlaşmasında, mədəni birliyində ən böyük rol oynayan təşkilatlardan biri- TÜRKSO-dur. Azərbaycan Yazıçılar Birliyi görkəmli şairimiz Bəxtiyar Vahabzadə adına diplom təsis edib. Bu diplom türk xalqları arasında qardaşlılığı, əlaqələri genişləndirən şəxslərə verilir. Bu il birliyin qərarı ilə bu mükafat TÜRKSOY-un Baş katibi Sultan Raevə veriləcək.



Xalq yazıçısı Anar mükafatı Sultan Raevə təqdim edib.

Sonra qonaqlar Türk dünyası ölkələrindən gəlmiş musiqi və folklor kollektivlərinin təqdim etdiyi konsert proqramını izləyiblər.



# *2023 Yılı Türk Dünyası Kültür Başkenti Şuşa*

Türk dünyasının 2022 Kültür Başkenti Bursa'da 8-9 Aralık günlerinde "Bursa'da Şuşa Günleri" düzenlendi. Bu etkinlikler sonrasında 2023 yılı Türk Dünyası Kültür Başkenti unvanı Şuşa'ya devredildi.

2023 yılı Kültür Başkenti Şuşa, Azerbaycan'ın geçen yıl 44 günlük savaş sonrasında Ermeni işgalinden kurtarılan, sosyal ve kültürel yaşamının en önemli merkezlerinden biri.

"Şuşa Günleri'nin açılış törenine, Bursa Valisi Yakup Canbolat, Bursa Büyükşehir Beldiyye  Başkanı Alinur Aktaş, Azerbaycan Ankara Büyükelçisi Reşat Eyneddin Memmedov, Azerbaycan Cumhurbaşkanı Şuşa Özel Temsilcisi Aydın Kerimov, Uluslararası Türk Kültür ve Miras Vakfı Başkanı Günay Efendiyeva ve TÜRKSOY Genel Sekreteri Sultan Raev, Türk Devletleri Teşkilatı Genel Sekreteri Kubaniçbek Ömüraliyev, Azerbaycan İstanbul Başkonsolosu Nermine Mustafayeva, Kazakistan İstanbul Başkonsolosu Alim Bayel ve Gagavuzya Kültür Bakanı Marina Semenovave çok sayıda Bursalı sanatsever katıldı. Uluslararası Türk Kültürü ve Mirası Vakfı tarafından doğumunun 190 yılı dolayısıyla hazırlanan Azerbaycan'ın seçkin şairi Natevan konulu belgesel filmin gösterimi ardından, Şuşa'nın kuruluşunun 270. yıldönümüne adanan ve Karabağ'ın tarihi gerçeklerini canlandıran "Şuşa'da Yüreğim Kaldı" adlı oyu sahnelendi.

"Başkentliğin Kutlu Olsun Şuşa"

"Bursa'da Şuşa Günleri"nde, Türk dünyasının çeşitli ülke ve bölgelerinden gelen sanatçı grupların sergiledikleri görkemli gösteriler sonrasında, Bursa'nın "2022 Türk Dünyası Kültür Başkenti" unvanı, "2023 Türk Dünyası Kültür Başkenti" seçilen Şuşa'ya devredildi.

Bursa Valisi Yakup Canbolat, Bursa'nın 'Türk Dünyası Kültür Başkenti unvanını Azerbaycan'ın Şuşa şehrine devredilmesi töreninde yaptığı konuşmada özetle şöyle dedi:  "Türk dünyasına başkentlik yapmak, sizler gibi kadim dostlarımızı ilimizde ağırlamak kolay nasip olmayacak bir şerefti. Cumhurbaşkanımızın ve Kültür ve Turizm Bakanımızın desteği, Büyükşehir Belediye Başkanı Alinur Aktaş ve ekibinin bu işe baş koyması ile muhteşem bir enerji ortaya çıkardık. Emeği geçen herkese şükranlarımı arz ediyorum. Bu ulu şehir bizi yanıltmadı. Bu iş babayiğitlik isteyen işti. Bunu başardık ve sözümüzü tuttuk. Bundan dolayı gururluyuz. Bu

vazifeyi başka bir babayiğite devrediyoruz. Azerbaycan'ın yüzlerce yıllık geleneğini sergileyen açık hava müzesi konumunda olan 28 yıl susturulan, fakat kurtarılan Şuşa'ya devretmekten dolayı mutluluğumuzu belirtmek istiyorum. Layıkıyla başkentlik yapacaklarına inancımızı iletmek isterim. Çok sayıda seçkin bilim ve ilim insanı, doğal güzellikleri ve müzik kültürünün baş tacı olması Şuşa'nın önemini ortaya koymaktadır. Emanetin hayırlı, başkentliğin kutlu olsun. Bursalı hemşehrilerimiz adına Şuşa'ya ve Türk Dünyası'na selam olsun."

Bursa Büyükşehir Belediye Başkanı Alinur Aktaş devir-teslim töreninde bayrağı Şuşa'ya devrettiklerini belirterek şunları söyledi: "Emaneti aldığımız günden itibaren çok önemli işler yaptık. Türk Dünyası yazarlarını, sanatçılarını ağırladık. Yurtdışında şehrimizi ve ülkemizi çok güzel şekilde tanıttık. 300 milyonluk Türk Dünyası söz konusu. Ve dolayısıyla turizm çekim merkezi oldu. Şimdi can Azerbaycan'a, Karabağ zaferinin önemli kalesi Şuşa'ya devrediyoruz. Biz unvanımızı kıyamete kadar sürdüreceğiz. Yaptığımız etkinlikler, inşallah, Türk Dünyası'nın güçlenmesine vesile olacaktır. Bu vesileyle Cumhurbaşkanımıza Kültür ve Turizm Bakanımıza, TİKA'ya, Dışişleri Bakanlığı'mıza emeği geçen tüm paydaşlara yürekten teşekkür ediyorum. Birliğimiz daim olsun inşallah."

Bursa Büyükşehir Belediye Başkanı Alinur Aktaş, "Türk Dünyası Kültür Başkenti" simgesini Azerbaycan Cumhurbaşkanı Şuşa Özel Temsilcisi Aydın Kerimov'a teslim etti. Bu devir-teslim töreniyle TÜRK DÜNYASI'NIN 2023 KÜLTÜR BAŞKENTİ Şuşa oldu.

28 yıl Ermeni işgalinde kaldıktan sonra, geçtiğimiz yıl 44 günlük bir savaş sonucunda yeniden özgürlüğüne kavuşan, Şuşa'ya TÜRK DÜNYASI'NIN 2023 KÜLTÜR BAŞKENTİ unvanı çok yaraştı.

Türk dünyası kültür başkenti Bursa, bu bayrağı layıkıyla taşıdı ve Karabağ'ın incisi Şuşa'ya devretti.

2023 yılı gönül köprülerini ileriye taşımak için önemli fırsatlar sunuyor. Şuşa'nın zaferi Türk dünyası için önemli bir zafer.

**Nevin Balta**



# *Shusha. Cultural Capital of Turkic World 2023*

Shusha, known as the pearl of Karabakh, is one of the symbols of Azerbaijan's history and culture. Founded by Panahali Khan in 1752, the city is replete with historical marvels exuding an epitome of the country's history.

The year 2022 marks the 270th anniversary of the foundation of the city.

The ancient monuments in Shusha offer an insight into the city's history and culture.

Azerbaijan's cultural capital is home to some fascinating sights like Shusha Castle, Bulbul's House-Museum, Yukhari Govhar Agha Mosque, Ashaghi Govhar Agha Mosque, etc.

Considering its historical and cultural significance, the city of Shusha has been declared the Cultural Capital of the Turkic World 2023.

The decision was made by the TURKSOY Permanent Council at an extraordinary meeting in Bursa, the Cultural Capital of the Turkic World 2022.

The meeting chaired by the Term Coordinator of the Permanent Council of TURKSOY and Turkish Minister of Culture and Tourism Mehmet Nuri Ersoy gathered Azerbaijani Culture Minister Anar Karimov, Secretary-General of the Organization of Turkic States Bagdad Amreyev, Secretary-General of TURK-PA (Parliamentary Assembly of Turkic-speaking Countries) Mehmet Sureyya Er, Turkic Culture and Heritage Foundation President Gunay Afandiyeva and other officials.

At the meeting, Culture Minister Anar Karimov suggested that the city of Shusha in Azerbaijan be declared Cultural Capital of the Turkic World 2023 and made a presentation on the history of Shusha as well as its cultural heritage and natural landscapes.

The presentation was followed by voting of the TURKSOY Permanent Council as a result of which the city of Shusha in Azerbaijan was unanimously selected as Cultural Capital of the Turkic World 2023.

The announcement of Shusha city as the Cultural Capital of the Turkic World 2023 gives grounds to say that the ancient city rises from the ashes.

Major work is carried out to restore historical, cultural and religious sights in the city liberated from almost three decades of the Armenian occupation.

Numerous cultural and sports events will be held in the city, including joint projects with the Turkic-speaking states.

At the same time, President Ilham Aliyev signed an order declaring the city of Shusha as Azerbaijan's cultural capital in order to restore Shusha's historical appearance, bring its former glory to the city as well reunite it with the traditionally rich cultural life.

Now Azerbaijan is determined to bring back life to the formerly occupied territories and to turn the city into the major cultural center.

**By Laman Ismayilova**